“İQTİSADİ İSLAHATLAR”
elmi-analitik jurnal

# SUBYEKTİV MADDİ RİFAH VƏ HƏYAT MƏMNUNLUĞU KONTEKSTİNDƏ NİKAH VƏ BOŞANMAYA MÜNASİBƏTLƏR:

№ 1(14)-2026
səh.

Məryam Ədilxanova
Beynəlxalq İqtisadiyyat Məktəbi (ISE),
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

https://doi.org

CC BY NC

maryam_adilkhanova@unec.edu.az

# Subyektiv maddi rifah və həyat məmnunluğu kontekstində nikah və boşanmaya münasibətlər: Azərbaycan üzrə təsviri təhlil

**Məryam Ədilxanova**
Beynəlxalq İqtisadiyyat Məktəbi (ISE), Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
ORCID: 0009-0009-0818-8873

## XÜLASƏ

Bu məqalə Azərbaycanda nikah, boşanma və ailə qurma kimi fundamental demoqrafik proseslərə fərdi yanaşmaları, xüsusilə də subyektiv maddi rifah və həyat məmnunluğu göstəricilərinin nikah və boşanma ilə bağlı münasibətlərlə əlaqəsini təsviri şəkildə araşdırır. Ölkədə boşanma nisbətində müşahidə olunan artım tendensiyası və demoqrafik artım dinamikasının yavaşlaması məsələnin tədqiqi əhəmiyyətini artırır. Fərdi səviyyədə məlumat bazasının olmaması səbəbindən təhlil anonim onlayn sorğu vasitəsilə toplanmış birinci əl məlumatlara əsaslanır. Tədqiqatın nəticələri göstərir ki, fərdlərin maddi vəziyyətdən və ümumi həyatdan daha yüksək məmnunluğun boşanma barədə daha az düşünmə tezliyi ilə əlaqəli olduğunu göstərir. Cəmiyyətdə ailə qurmağın mütləq bir sosial norma kimi qəbul edilməsi meyllərinin zəifləməsi və fərdi rifahın prioritetə çevrilməsi Qərb ölkələri üçün xarakterik olan "*İkinci Demoqrafik Keçid*" nəzəriyyəsi çərçivəsində izah edilir. Bundan əlavə, tədqiqatda ailə dinamikasında müşahidə olunan gender fərqlilikləri – aşağı maddi məmnunluq kateqoriyalarında qadın respondentlərin boşanma barədə daha tez-tez düşündüklərini bildirməsi – və fərdin maddi məmnuniyyəti ilə boşanma riski arasındakı mənfi istiqamətli təsviri əlaqə xüsusi olaraq diqqətə çatdırılır. Əldə edilən tapıntılar bu əlaqələrin daha reprezentativ nümunələr və inferensial metodlarla araşdırılması üçün ilkin empirik əsas yaradır. Nəticələr onlayn seçmə əsasında yığılan sorğu məlumatlarına əsasən əldə edildiyindən Azərbaycan üzrə birbaşa ümumiləşdirmə məqsədəuyğun olmasa da cari vəziyyətlə bağlı ümumi təsəvvür yaranması baxımından əhəmiyyətlidir.

**Açar sözlər**: maddi rifah, nikah, boşanma dinamikası, sosial-iqtisadi inkişaf, həyat məmnuniyyəti, demoqrafik keçid.

**JEL kodları:** J12, I31, J11, D10, Z13.

## 1. GİRİŞ

Cəmiyyətin əsas sütunlarından olan ailə institutu qlobal miqyasda, o cümlədən post-sovet məkanında sürətli sosial, iqtisadi və mədəni transformasiyalara məruz qalmaqdadır (Aghayeeabianeh & Stamatel, 2022). Ailə qurmaq və nikahların pozulması qərarları hər nə qədər fərdi səviyyədə verilsə də, bu qərarların məcmusu cəmiyyət üçün gələcək demoqrafik və sosial-iqtisadi proseslərə dərin təsir göstərən makro-səviyyəli nəticələr doğurur (Becker, 1981). Son illərdə aparılan tədqiqatlar göstərir ki, makroiqtisadi göstəricilər Azərbaycanda da nikah və boşanma dinamikasını təsir edən başlıca amillərdəndir (Adilkhanova & Aliyev, 2024).

Azərbaycan kontekstində son onilliklərdə (xüsusən 2014-2023-cü illəri əhatə edən dövrdə) boşanma hallarının artması (Khalafli et al., 2025) və qadınların ilk evlilik yaşının gecikməsi ənənəvi ailə dəyərləri ilə qloballaşan dünyanın müasir sosial-iqtisadi reallıqlarının və çağırışlarının toqquşmasını aydın şəkildə nümayiş etdirir (Aliyeva, Aliyeva, & Zhurba, 2017; Nuruzade, 2026). Buna görə də fərdi səviyyədə Azərbaycanda insanların, xüsusilə də gənc ailələrin nikah və boşanmalar barədə subyektiv düşüncələrini öyrənmək təkcə sosioloji deyil, həm də dövlətin demoqrafik və sosial

siyasətinin formalaşdırılması baxımından praktiki əhəmiyyət kəsb edir. Müasir ədəbiyyatda Lesthaeghe (2014) tərəfindən irəli sürülən “İkinci Demoqrafik Keçid” nəzəriyyəsi insanların artıq sadəcə nəslin davamı və iqtisadi təhlükəsizlik üçün deyil, fərdi xoşbəxtlik, özünügerçəkləşdirmə və psixoloji rifah üçün ailə qurduğunu izah edir. Bu baxımdan, sosial və makroiqtisadi problemlərin ictimai rəydə necə qavranılması (Aliyev, 2023), eləcə də iqtisadi çətinliklər bilavasitə evliliyin dayanıqlığını sarsıdan amillərə çevrilir. Azərbaycanda dəyərlərin, eyni zamanda ailədə sevgi, hörmət və İslam dəyərlərinin tədqiqi ilə bağlı (Aliyeva, 2023) fundamental tədqiqatlara böyük ehtiyac var. Bu sahədə ən çox istinad edilən Dünya Dəyərlər Anketinin (World Values Survey) 6-cı dalğası 2011-ci ildə həyata keçirildiyi üçün (Inglehart et al., 2014), cari vəziyyətin subyektiv rifah aspektindən təhlili üçün kifayət etmir. Hazırkı tədqiqat isə fərdi məlumatların birinci əl mənbədən yığılması vasitəsilə bu istiqamətdəki mövcud elmi və empirik boşluğu doldurmağı hədəfləyir.

Mövcud ədəbiyyatda Azərbaycanda nikah və boşanma dinamikası əsasən məcmu statistik göstəricilər və nəzəri yanaşmalar əsasında araşdırılmışdır. Bununla belə, fərdlərin ailə qurmağa münasibəti, boşanma barədə düşünmə tezliyi və bu göstəricilərin subyektiv maddi rifah, ümumi həyat məmnunluğu və ailə həyatından məmnunluqla əlaqəsi barədə məlumat bazası məhduddur. Bu tədqiqatın məqsədi 2024–2025-ci illərdə keçirilmiş anonim onlayn sorğudan əldə olunan məlumatlar əsasında həmin əlaqələri təsviri şəkildə təhlil etməkdir. Tədqiqat aşağıdakı suallara cavab axtarır: 1) respondentlər ailə qurmağı sosial zərurət, yoxsa şəxsi seçim kimi qiymətləndirir; 2) ailə həyatından və ümumilikdə həyatdan məmnunluq boşanma barədə düşünmə tezliyi ilə necə əlaqəlidir; 3) subyektiv maddi məmnunluq ailə qurmağın əhəmiyyəti və boşanma barədə düşünmə tezliyi ilə əlaqəlidirmi; 4) qeyd olunan təhlil nəticələri respondentlərin cinsinə görə fərqlənirmi? Məqalənin töhfəsi Azərbaycan üzrə qeyri-reprezentativ, lakin yeni fərdi səviyyəli sorğu məlumatları əsasında təhlil aparması və dəyişənlər arasındakı əlaqələri sistemli şəkildə qiymətləndirməsi şəklində xarakterizə edilə bilər.

## 2. ƏDƏBİYYAT İCMALI VƏ NƏZƏRİ ÇƏRÇİVƏ

Ailə münasibətlərinin, xüsusilə evlilik və boşanma meyllərinin sosial-iqtisadi determinantları uzun müddətdir ki, həm iqtisadçıların, həm də sosioloqların diqqət mərkəzindədir. Bekkerin (Becker, 1981) klassik nəzəriyyəsinə görə, fərdlər evliliyə subyektiv faydalılıqlarını maksimallaşdırmaq üçün daxil olurlar. Tərəflər arasında iqtisadi məmnuniyyət azaldıqda və evlilikdən kənar alternativlərin gətirəcəyi fayda daha cəlbedici göründükdə boşanma qərarları formalaşır. Eyni zamanda, Cherlin (2004) “nikahın de-institusionalizasiyası” konsepsiyasını irəli sürərək, müasir dövrdə evliliyin məcburi sosial öhdəlikdən daha çox fərdi seçimə çevrildiyini vurğulayır. Bu keçid, xüsusilə də Azərbaycanın müxtəlif iqtisadi-coğrafi rayonlarında, məsələn Quba-Xaçmaz bölgəsində nikah və boşanma dinamikasında özünü bariz şəkildə göstərir (Bayramov, 2021).

Sosial-iqtisadi rifahın ailənin dayanıqlığına təsiri barədə Amato (2010) tərəfindən yerinə yetirilən tədqiqat işi maliyyə stresi və məşğulluq problemlərinin ailədaxili münaqişələri kəskinləşdirdiyini, xüsusən də boşanma riskini birbaşa artırdığını sübut etmişdir. Həmçinin, Diener və digərlərinin (1999) subyektiv rifah nəzəriyyəsi fərdin öz gəliri və həyat şəraiti barədəki persepsiyasının onun ailə həyatından məmnunluğuna necə sirayət etdiyini izah edir.

Azərbaycan cəmiyyətində qadının rolu da sürətlə dəyişməkdədir. Əvvəllər daha çox erkən nikahların xarakterik olduğu (Mehdi, 2009) dövrlərdən fərqli olaraq, müstəqillik illərində hüquqi islahatlar qadın hüquqlarının müdafiəsini gücləndirmiş (Zakir, 2024) və müasir Azərbaycan ailəsində qadının mövqeyini əsaslı şəkildə dəyişmişdir (Nadir, 2022). Qadınların sosial-iqtisadi

həyata cəlb edilməsi, Oppenheimerin (1997) qeyd etdiyi kimi, onların asılılığını və ənənəvi evlilikdən əldə etdikləri məcburi faydanı azaldır ki, bu da boşanma qərarlarına daha rahat getmələrinə zəmin yaradır. Nikahın pozulmasının həm iqtisadi qeyri-bərabərlik və cinayətkarlıq kimi makro-nəticələri (Gulaliyev et al., 2025), həm də şəxslər üzərində birbaşa psixoloji fəsadları (Bagirzadeh, 2025) nəzərə alındıqda məsələnin həssaslığı daha da artır.

Bizim tədqiqatımızda da bu nəzəri yanaşmaların Azərbaycan gerçəkliyində - xüsusilə respondentlərin öz maddi vəziyyətlərini 1-10 ballıq şkala ilə necə qiymətləndirmələri və bunun boşanma düşüncələrinə necə yansıması fonunda - öz təsdiqini tapdığını müşahidə edirik.

## 3. METODOLOGİYA VƏ VERİLƏNLƏRİN YIĞILMASI

Fərdi səviyyədə təhlil üçün istifadə olunacaq verilənlər bazası 1-ci əl mənbədən, yəni bilavasitə müəllif tərəfindən həyata keçirilmiş sosioloji sorğu nəticəsində toplanmışdır. "*Azərbaycanda ailə münasibətləri barədə ictimai rəy*" mövzusunda keçirilən sorğu 22 dekabr 2024-cü il və 13 yanvar 2025-ci il tarixləri arasında onlayn platforma (Google Forms) vasitəsilə təşkil edilmişdir. Krumpalın (2013) qeyd etdiyi kimi, boşanma, ailədaxili münaqişələr və şəxsi rifah kimi həssas mövzularda üz-üzə sorğular respondentlərdə "sosial arzuolunanlıq", yəni cəmiyyətdə qəbul edilmiş normalara uyğun cavab vermək meyli yaradır. Məhz respondentlərin anonimliyini tam təmin etmək və obyektiv, səmimi cavablar almaq üçün tədqiqat metodu kimi onlayn sorğu metodu seçilmişdir.

Ümumiyyətlə, qeyd olunan müddətdə sorğuda 818 iştirak qeydə alınmış, təkrarlanan və məntiqi uyğunsuzluq təşkil edən cavabların təmizlənməsindən sonra 784 etibarlı iştirak qeydə alınmış, onlardan cinsi mənsubiyyətlə bağlı sualı cavablandırmayan 29 çıxarılaraq qalan 755 iştirak analizə cəlb edilmişdir (bax cədvəl 1 və cədvəl 2). Tam təhlil üçün zəruri suallara cavab verən 755 nəfərdən 333-ü kişi (44,11%), 422-si isə qadındır (55,89%). Sorğu iştirakçılarının əhəmiyyətli hissəsi təhsilli təbəqədir: 42,65%-i bakalavr, 30,50%-i magistratura, 9,31%-i isə doktorantura təhsillidir.

İştirakçı profilinə ailə vəziyyəti kontekstindən baxdıqda müşahidə olunur ki, respondentlərin 69,01%-ni evlilər, 22,12%-ni subaylar, qalan hissəsini isə boşanmış və digər kateqoriyaya aid fərdlər təşkil edir. Eyni zamanda cədvəldə verilənlərin gender və təhsil səviyyəsi kəsişməsi cəmiyyətin mühüm qruplarının təmsilçiliyi haqqında məhdud səviyyədə də olsa təsəvvür yaratmağa imkan verir.

Respondentlərin ərazi baxımından da paylanması kifayət qədər əhatəlidir. Bakıda və Abşeron yarımadasında yaşayan şəxslər sorğu iştirakçılarının əsas hissəsini təşkil etsə də (təxminən 67%), ölkənin digər regionlarından, eləcə də kənd və qəsəbələrdən də məlumatlar toplanmışdır Bununla belə, iştirakçıların təxminən 67%-nin Bakı və Abşeronda yaşaması, nümunədə ali təhsilli şəxslərin üstünlük təşkil etməsi və respondentlərin könüllülük prinsipi əsasında onlayn sorğuda iştirakı nəticələrin Azərbaycan əhalisinə statistik baxımdan ümumiləşdirilməsini məhdudlaşdırır.

Cədvəl 1. Sorğu iştirakçılarının cinsi mənsubiyyət və ailə vəziyyətinə görə profili

| Hazırda siz… | Kişi | Qadın | Cəmi |
|---|---|---|---|
| *Panel A: Sorğu iştirakçılarının profili (nəfər)* | | | |
| Subaysınız | 79 | 88 | 167 |
| Evlisiniz | 225 | 296 | 521 |
| Dulsunuz | 4 | 7 | 11 |
| Boşanmışsınız | 19 | 29 | 48 |
| Təkrar evlənmisiniz | 6 | 2 | 8 |
| Cəmi | 333 | 422 | 755 |
| **Panel B: Cinsi mənsubiyyətə görə iştirakçı profili (sütun üzrə paylanma, %-lə)** | | | |
| Subaysınız | 23.72 | 20.85 | 22.12% |
| Evlisiniz | 67.57 | 70.14 | 69.01 |
| Dulsunuz | 1.20 | 1.66 | 1.46 |
| Boşanmışsınız | 5.71 | 6.87 | 6.36 |
| Təkrar evlənmisiniz | 1.80 | 0.47 | 1.06 |
| Cəmi | 100 | 100 | 100 |
| **Panel C: Ailə vəziyyətinə görə iştirakçı profili (sətir üzrə paylanma, %-lə)** | | | |
| Subaysınız | 47.31 | 52.69 | 100 |
| Evlisiniz | 43.19 | 56.81 | 100 |
| Dulsunuz | 36.36 | 63.64 | 100 |
| Boşanmışsınız | 39.58 | 60.42 | 100 |
| Təkrar evlənmisiniz | 75.00 | 25.00 | 100 |
| Cəmi | 44.11 | 55.89 | 100 |
| **Panel D: Ailə vəziyyəti və cinsi mənsubiyyətə görə birlikdə paylanma (%-lə)** | | | |
| Subaysınız | 10.46 | 11.66 | 22.12 |
| Evlisiniz | 29.80 | 39.21 | 69.01 |
| Dulsunuz | 0.53 | 0.93 | 1.46 |
| Boşanmışsınız | 2.52 | 3.84 | 6.36 |
| Təkrar evlənmisiniz | 0.79 | 0.26 | 1.06 |
| Cəmi | 44.11 | 55.89 | 100 |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2. Ailə vəziyyəti və təhsil səviyyəsi üzrə iştirakçı profili, %

| Hazırda siz… | Tam orta təhsil | Peşə-ixtisas təhsili | Bakalavr | Doktorantura | Magistratura |
|---|---|---|---|---|---|
| Subaysınız | 3.37 | 1.35 | 9.85 | 1.08 | 5.26 |
| Evlisiniz | 4.32 | 6.61 | 29.96 | 7.15 | 22.27 |
| Dulsunuz | 0.00 | 0.00 | 0.54 | 0.27 | 0.54 |
| Boşanmışsınız | 0.67 | 0.94 | 1.75 | 0.67 | 2.29 |
| Təkrar evlənmisiniz | 0.13 | 0.13 | 0.54 | 0.13 | 0.13 |
| **Cəmi** | **8.50** | **9.04** | **42.65** | **9.31** | **30.50** |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

## 4. AİLƏ QURMAQ İDEOLOGİYASI: SOSİAL NORMA, YOXSA ŞƏXSİ SEÇİM?

Azərbaycan cəmiyyətində "nikah və boşanmalara fərdi baxış" dedikdə ilk olaraq ailə ilə bağlı düşüncə tərzi ön plana çıxır. Qeyri-representativ sorğu məlumatları əsasında çıxarılan nəticələr ölkə üzrə ümumiləşdirmə imkanını məhdudlaşdırsa da müəyyən təsəvvür yaratmağa imkan verir. Ənənəvi düşüncədə evlilik mütləq icra edilməli olan bir "sosial öhdəlik" hesab edildiyi halda, yerinə yetirilən tədqiqat işi cəmiyyətdə gedən dərin transformasiyanı gün üzünə çıxarır. Sorğuda

verilmiş “*Sizcə hər kəs ailə qurmalıdırmı?*” sualına respondentlərin 63,6%-i “xeyr” cavabını vermişdir. Bu o deməkdir ki, Azərbaycanda, xüsusilə də ali təhsilli və gənc respondentlər, ailə qurmağa məcburiyyət deyil, azad seçim kimi yanaşmaqdadır. Bu nəticə Cherlinin (2004) nikahın müasir dövrdə institusional xarakterini itirməsi fikri ilə tam uzlaşır.

Cədvəl 3. “*Ailə sahibi olmağın əhəmiyyəti*” barədə subyektiv dəyərləndirmə

| ***Sizcə hər kəs ailə qurmalıdırmı?*** | | ***Sizin üçün "ailə sahibi olmaq" nə dərəcədə əhəmiyyətlidir? (5-lik Likert şkalası üzrə qiymətləndirmə), %*** | | | | |
|---|---|---|---|---|---|---|
| | | **1** | **2** | **3** | **4** | **5** |
| **Bütün qrup** | Xeyr | 74.24 | 93.10 | 89.51 | 79.87 | 43.49 |
| | Bəli | 25.76 | 6.90 | 10.49 | 20.13 | 56.51 |
| **Subaylar** | Xeyr | 90.91 | 100 | 89.09 | 85.45 | 61.90 |
| | Bəli | 9.09 | 0 | 10.91 | 14.55 | 38.10 |
| **Evlilər** | Xeyr | 60.61 | 94.44 | 89.19 | 80.68 | 41.53 |
| | Bəli | 39.39 | 5.56 | 10.81 | 19.32 | 58.47 |
| **Boşanmışlar** | Xeyr | 75.00 | 100 | 92.31 | 62.50 | 47.37 |
| | Bəli | 25.00 | 0 | 7.69 | 37.50 | 52.63 |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Bununla belə, ailənin “vacibliyindən” imtina etmək, heç də ailə dəyərlərinə hörmətsizlik demək deyil. Belə ki, eyni respondentlərin böyük əksəriyyəti özləri üçün ailə qurmağın çox böyük əhəmiyyət daşıdığını qeyd etmişdir (bax: cədvəl 3). Ailə vəziyyətinə görə paylanmada da maraqlı mənzərə mövcuddur: subayların böyük hissəsi (82,3%-i) hər kəsin ailə qurmaq məcburiyyətində olmadığını düşünür, lakin eyni subaylar fərdi baxımdan ailənin əhəmiyyətli olduğunu qəbul edirlər.

Cəmiyyət boşanmaların artmasını sosial problem kimi qəbul etsə də (Alıyev, 2023), buna fərdi reaksiyalar kəskin şəkildə fərqlənir. Evli iştirakçılara verilən “*(Evlisinizsə) Boşanmaq barədə düşünürsünüzmü?*” sualının cavabları gender aspektində əhəmiyyətli bərabərsizliyi mövcud olduğunu göstərir. Kişilərin 77,5%-i boşanmaq barədə heç vaxt düşünmədiyini bəyan etdiyi halda, qadınlar arasında bu rəqəm 56,2% səviyyəsindədir. Qadınların təqribən 24%-i “bəzən” və ya “tez-tez” boşanmaq barədə düşündüklərini bildiriblər.

Bu nəticəni Oppenheimer (1997) kimi alimlərin qadınların iqtisadi müstəqilliyi və ailə həyatından (evli olmaq) məmnunluq nəzəriyyəsi ilə əlaqələndirmək olar. Qadınların sosial-iqtisadi həyata daha çox inteqrasiya olunması onların maddi asılılığını azaltdığı üçün narazı olduqları evlilikləri davam etdirmək motivasiyasını gözlənildiyi kimi, aşağı düşür. Digər tərəfdən isə bu nəticə həm də qadınların ailədaxili məişət qayğılarında kişilərə nisbətən daha çox əziyyət çəkdiyini və psixoloji gərginlik yaşadığını ehtiva edə bilər.

## 5. HƏYAT MƏMNUNİYYƏTİ VƏ BOŞANMA TEZLİYİ ARASINDA ƏLAQƏ

Ailə münasibətlərinin dayanıqlığı həm ailə həyatından, həm də ümumilikdə şəxsin həyat məmnuniyyəti göstəricilərinə sıx bağlıdır. Diener və digərləri (1999) vurğuladığı kimi, fərdin ümumi rifah halı onun mikromühitdəki (ailədəki) münasibətlərinə proyeksiya olunur.

Cədvəl 4. Həyat məmnuniyyəti və boşanma barədə düşünmə tezliyi

| Sizinlə bağlı bütün hər şeyi nəzərə aldıqda (10-luq Likert şkalası əsasında) | *Boşanma barədə düşünmə tezliyi, %* | | | | |
|---|---|---|---|---|---|
| | **Heç vaxt** | **Nadir hallarda** | **Bəzən** | **Tez-tez** | **Cəmi** |
| 1 | 46.2 | 7.7 | 23.1 | 23.1 | 100 |
| 2 | 50.0 | 20.0 | 0.0% | 30.0 | 100 |
| 3 | 30.8 | 23.1 | 23.1 | 23.1 | 100 |
| 4 | 45.5 | 9.1 | 27.3 | 18.2 | 100 |
| 5 | 54.5 | 17.2 | 16.2 | 12.1 | 100 |
| 6 | 63.0 | 18.5% | 14.8 | 3.7 | 100 |
| 7 | 61.0 | 20.7 | 14.6 | 3.7 | 100 |
| 8 | 70.4 | 19.2 | 6.4 | 4.0 | 100 |
| 9 | 87.7 | 8.2 | 4.1 | 0.0 | 100 |
| 10 | 85.2 | 10.2 | 1.1 | 3.4 | 100 |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Cədvəl 4 və 5 - də bu nəzəriyyənin Azərbaycana aidliyi əlaqəli olduğu təsviri təhlil əsasında müşahidə edilir. Həyatından 1-2 bal səviyyəsində narazı olanların təqribən 23-30%-i evliliyini sonlandırmağı tez-tez düşünür. Lakin həyat məmnuniyyəti yüksəldikcə, "heç vaxt boşanmağı düşünmürəm" deyənlərin faizi ümumilikdə artım tendensiyası nümayiş etdirir və 9-10 ballıq məmnuniyyət səviyyəsində bu rəqəm 87%-ə çatır.

Cədvəl 5. Ailə həyatından məmnunluq və boşanma barədə düşünmə tezliyi

| *Boşanma barədə düşünmə tezliyi* | **Ailə həyatından məmnunluq dərəcəsi, %** | | | |
|---|---|---|---|---|
| | **1** | **2** | **9** | **10** |
| Heç vaxt | 23.33 | 37.50 | 84.21 | 90.51 |
| Nadir hallarda | 6.67 | 6.25 | 14.04 | 8.86 |
| Bəzən | 23.33 | 25.00 | 1.75 | 0.00 |
| Tez-tez | 46.67 | 31.25 | 0.00 | 0.63 |
| **Cəmi** | **100** | **100** | **100** | **100** |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Cədvəl 5-də isə 10-luq Likert şkalasında ölçülən ailə həyatından məmnunluq səviyyəsinin aşağı və yuxarı hissələri boşanma barədə düşünmə tezliyi ilə birlikdə paylanma şəklində təqdim edilmişdir. Təəccüblü deyil ki, ailə həyatından məmnun olmayanlar (1 və ya 2 bal ilə qiymətləndirənlər) arasında boşanma barədə düşünənlərin payı ailə həyatından məmnun olanlarla (9 və 10 bal ilə qiymətləndirənlər) müqayisədə kəskin şəkildə fərqlənir.

## 6. MADDİ RİFAH VƏ "SOSİAL-İQTİSADİ İNKİŞAF"IN İZLƏRİ

Tədqiqatın əsas müşahidələrindən biri respondentlərin subyektiv maddi məmnunluq səviyyəsi ilə ailə qurmağın əhəmiyyətinə verdikləri qiymət və boşanma barədə düşünmə tezliyi arasında təsviri əlaqənin olmasıdır. Maddi imkan baxımından subyektiv məmnunluq dərəcəsi "ailə qurmağın əhəmiyyəti"nin necə qəbul edilməsini müxtəlif qiymətləndirmələrlə əlaqəli görünür (Cədvəl 6). Əgər bir gənc özünü maddi imkan baxımdan məmnuniyyət səviyyəsini "1 bal" ilə qiymətləndirirsə, onun üçün ailə qurmağın əhəmiyyəti kəskin şəkildə aşağı düşür. Bu qrupda ailəni tam əhəmiyyətsiz sayanların xüsusi çəkisi kifayət qədər böyükdür. Lakin maddi məmnuniyyət artdıqca, xüsusən 5 bal və üzəri göstəricilərə çatdıqca fərdlərin (xüsusilə də kişilərin) ailəyə verdikləri önəm maksimum həddə qədər artır.

Cədvəl 6. Maddi imkan baxımından məmnuniyyət və "ailə sahibi olmağın əhəmiyyəti"

| **Maddi imkan baxımından (10-luq Likert şkalası əsasında)** | ***Sizin üçün ailə sahibi olmaq nə qədər əhəmiyyətlidir? %*** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **1** | **2** | **3** | **4** | **5** | **Cəmi** |
| 1 | 26.53 | 10.20 | 14.29 | 10.20 | 38.78 | 100 |
| 2 | 19.44 | 0.00 | 19.44 | 11.11 | 50.00 | 100 |
| 3 | 12.33 | 4.11 | 27.40 | 12.33 | 43.84 | 100 |
| 4 | 7.41 | 3.70 | 24.07 | 16.67 | 48.15 | 100 |
| 5 | 10.00 | 3.33 | 16.67 | 16.00 | 54.00 | 100 |
| 6 | 3.41 | 3.41 | 19.32 | 29.55 | 44.32 | 100 |
| 7 | 2.40 | 3.20 | 24.00 | 26.40 | 44.00 | 100 |
| 8 | 3.13 | 2.08 | 15.63 | 26.04 | 53.13 | 100 |
| 9 | 8.11 | 8.11 | 10.81 | 24.32 | 48.65 | 100 |
| 10 | 6.82 | 2.27 | 13.64 | 6.82 | 70.45 | 100 |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Kişi və qadınların sosial-iqtisadi çətinliklərə baxış bucaqları da fərqlidir. Cədvəl 7(a) və 7(b) göstərir ki, maddi çətinlik şəraitində qadınlar kişilərə nisbətən ailə qurmaq ideyasından daha çox uzaqlaşır və boşanma haqqında daha sıx düşünürlər. Bu, cəmiyyətdə ailənin iqtisadi təminatının qadının gözləntiləri daxilində olması və maddi yetərsizliyin ailə münaqişələrinə səbəb olması ehtimalı ilə izah edilə bilər (Amato, 2010).

Cədvəl 7(a). Maddi imkan baxımından məmnuniyyət və boşanma barədə düşünmə tezliyi

| **Maddi imkan baxımından (10-luq Likert şkalası əsasında)** | ***Boşanma barədə düşünmə tezliyi, %*** | | | | |
|---|---|---|---|---|---|
| | **Heç vaxt** | **Nadir hallarda** | **Bəzən** | **Tez-tez** | **Cəmi** |
| 1 | 52.94 | 14.71 | 8.82 | 23.53 | 100 |
| 2 | 55.56 | 7.41 | 14.81 | 22.22 | 100 |
| 3 | 55.36 | 8.93 | 26.79 | 8.93 | 100 |
| 4 | 55.00 | 25.00 | 12.50 | 7.50 | 100 |
| 5 | 69.60 | 16.00 | 8.80 | 5.60 | 100 |
| 6 | 60.81 | 20.27% | 14.86 | 4.05 | 100 |
| 7 | 72.63 | 17.89 | 5.26 | 4.21 | 100 |
| 8 | 73.17 | 17.07 | 7.32 | 2.44 | 100 |
| 9 | 73.33 | 13.33 | 10.00 | 3.33 | 100 |
| 10 | 82.86 | 5.71 | 5.71 | 5.71 | 100 |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Cədvəl 7(b). Maddi imkan baxımından məmnuniyyət və boşanma barədə düşünmə tezliyi

| **Maddi imkan baxımından (10-luq Likert şkalası əsasında)** | ***Boşanma barədə düşünmə tezliyi, %*** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Kişilər** | | | | **Qadınlar** | | | |
| | **Heç vaxt** | **Nadir hallarda** | **Bəzən** | **Tez-tez** | **Heç vaxt** | **Nadir hallarda** | **Bəzən** | **Tez-tez** |
| 1 | 66.67 | 11.11 | 0.00 | 22.22 | 48.00 | 16.00 | 12.00 | 24.00 |
| 2 | 63.64 | 18.18 | 18.18 | 0.00 | 50.00 | 0.00 | 12.50 | 37.50% |
| 3 | 78.57 | 10.71 | 10.71 | 0.00 | 32.14 | 7.14 | 42.86 | 17.86 |
| 4 | 80.00 | 13.33 | 0.00 | 6.67 | 40.00 | 32.00 | 20.00 | 8.00 |
| 5 | 72.41 | 17.24 | 6.90 | 3.45 | 67.16 | 14.93 | 10.45 | 7.46 |
| 6 | 75.86 | 3.45 | 13.79 | 6.90 | 51.11 | 31.11 | 15.56 | 2.22 |
| 7 | 88.10 | 9.52 | 0.00 | 2.38 | 60.38 | 24.53 | 9.43 | 5.66 |
| 8 | 82.05 | 15.38 | 2.56 | 0.00 | 65.12 | 18.60 | 11.63 | 4.65 |
| 9 | 76.92 | 7.69 | 15.38 | 0.00 | 70.59 | 17.65 | 5.88 | 5.88 |
| 10 | 84.21 | 5.26 | 5.26 | 5.26 | 81.25 | 6.25 | 6.25 | 6.25 |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Cədvəl 8. Maddi imkan baxımından məmnuniyyət və ailə həyatı baxımından məmnuniyyətin şərtli paylanması (%-lə)

| **Maddi imkan baxımından (10-luq Likert şkalası əsasında)** | ***Ailə həyatı baxımından məmnunluq*** **(10-luq Likert şkalası əsasında)** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **Cəmi** |
| 1 | 38.5 | 3.8 | 7.7 | 7.7 | 11.5 | 3.8 | 0.0 | 0.0 | 0.0 | 26.9 | 100 |
| 2 | 13.6 | 9.1 | 4.5 | 13.6 | 22.7 | 4.5 | 13.6 | 9.1 | 4.5 | 4.5 | 100 |
| 3 | 13.5 | 7.7 | 1.9 | 1.9 | 34.6 | 11.5 | 11.5 | 5.8 | 0.0 | 11.5 | 100 |
| 4 | 2.9 | 2.9 | 0.0 | 14.3 | 17.1 | 8.6 | 14.3 | 25.7 | 2.9 | 11.4 | 100 |
| 5 | 6.4 | 3.7 | 2.8 | 0.9 | 11.9 | 4.6 | 16.5 | 15.6 | 11.9 | 25.7 | 100 |
| 6 | 0.0 | 1.6 | 4.8 | 3.2 | 6.3 | 12.7 | 11.1 | 22.2 | 11.1 | 27.0 | 100 |
| 7 | 0.0 | 1.2 | 0.0 | 1.2 | 7.4 | 3.7 | 11.1 | 22.2 | 13.6 | 39.5 | 100 |
| 8 | 2.6 | 0.0 | 1.3 | 0.0 | 6.5 | 2.6 | 10.4 | 23.4 | 19.5 | 33.8 | 100 |
| 9 | 0.0 | 3.8 | 0.0 | 0.0 | 0.0 | 0.0 | 3.8 | 15.4 | 26.9 | 50.0 | 100 |
| 10 | 0.0 | 3.6 | 0.0 | 0.0 | 3.6 | 3.6 | 0.0 | 0.0 | 7.1 | 82.1 | 100 |
| **Cəmi** | **5.8** | **3.1** | **2.1** | **2.9** | **11.8** | **5.8** | **11.0** | **16.4** | **11.0** | **30.3** | **100** |

Mənbə: Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Maddi vəziyyət ailə həyatından alınan psixoloji məmnuniyyətə də təsir edir. Maddi vəziyyətini 1 balla qiymətləndirənlərin yalnız çox az bir hissəsi ailə həyatından yüksək zövq aldığını bildirir. Cədvəl 8-də subyektiv maddi məmnunluğun daha yüksək kateqoriyalarında ailə həyatından yüksək məmnunluq cavablarının daha çox müşahidə olunduğu görünür. Bununla belə, kəsişmə xarakterli məlumatlar əlaqənin istiqamətini və səbəb-nəticə mexanizmi barədə müəyyən təsəvvür yaratmağa imkan vermir.

## 7. MÜZAKİRƏ

Sorğu məlumatları əsasında yerinə yetirilmiş təsviri təhlil göstərir ki, Azərbaycanda ailə institutu Qərbdə müşahidə edilən tendensiyalara oxşar inkişaf mərhələsindən – rasional və fərdi seçimlərə söykənən transformasiya dövründən keçir. Sorğu iştirakçılarının verdiyi cavablardan aydın olur ki, gənclər üçün ailə qurmaq artıq sadəcə qeyd-şərtsiz yerinə yetirilməli olan sosial-mədəni qərar deyil. Əksinə, onlar bunun əvəzinə fərdi məmnuniyyət, psixoloji uyğunluq və rifah zəminində qurulmuş münasibətlərə üstünlük verirlər. Bu proses Lesthaeghe (2014) tərəfindən irəli sürülən “İkinci Demoqrafik Keçid” nəzəriyyəsi və Cherlinin (2004) vurğuladığı “nikahın de-institusionalizasiyası” (fərdi seçimə çevrilməsi) meylləri ilə uyğunluq nümayiş etdirir.

Əldə edilən başlıca nəticə ondan ibarətdir ki, sosial-iqtisadi inkişaf səviyyəsi və fərdin öz maddi vəziyyətindən məmnunluğu bilavasitə olaraq ölkədəki demoqrafik proseslərin mühüm əlaqəli göstəricilərdən biri kimi görünür (Adilkhanova & Aliyev, 2024). Subyektiv iqtisadi narazılıq və maliyyə sıxıntıları sadəcə evlilik yaşının gecikməsinə və gənclərin evlilikdən qaçmasına səbəb olmur, eyni zamanda mövcud evliliklərin boşanma ilə nəticələnməsi ilə əlaqəlidir (Amato, 2010; Becker, 1981). Tədqiqat göstərir ki, maliyyə məmnuniyyəti ilə evliliyin dayanıqlığı arasında güclü müsbət, boşanma riski ilə isə mənfi əlaqə mövcuddur.

Qadınların ailə və maliyyə mövzusunda kişilərə nisbətən daha həssas reaksiyalar verməsi xüsusi diqqət çəkir. Bu, müasir Azərbaycanda qadının rolunun dəyişməsi (Nadir, 2022) və qadın hüquqlarının inkişafı (Zakir, 2024) fonunda, artan iqtisadi azadlıqların qadınların psixoloji gözləntilərinə necə təsir etdiyini nümayiş etdirir (Oppenheimer, 1997). Boşanmaların gətirəcəyi

psixoloji fəsadları (Bagirzadeh, 2025) və iqtisadi qeyri-bərabərliyin cinayətkarlıq kimi mənfi makro-nəticələrə yol aça biləcəyini (Gulaliyev et al., 2025) nəzərə alsaq, bu sahədəki problemlərin həlli xüsusi həssaslıq tələb edir.

Bununla belə qeyd etmək lazımdır ki, təsviri təhlil əsasında müşahidə olunan “əlaqələr” nəzəri mexanizmlərin bu nümunədə səbəb-nəticə baxımından təsdiqləndiyini göstərmir. Onlar yalnız müşahidə edilən assosiasiyaların əvvəlki ədəbiyyatla uyğun istiqamətdə olduğu qənaətinə gəlməyə müəyyən əsaslar yaradır. Səbəb-nəticə əsaslı qənaətlərin formalaşması daha dərin və əhatəli təhlillərin aparılmasını zəruri edir.

## 8. NƏTİCƏ

Bu tədqiqat anonim onlayn sorğuda iştirak etmiş respondentlərin nikah və boşanma ilə bağlı düşüncələrini, maddi vəziyyətlə bağlı (subyektiv) məmnunluğunu, ümumi həyat səviyyəsindən razılığı və ailə həyatından məmnunluğunu təsviri şəkildə araşdırmışdır. Nəticələr göstərir ki, respondentlərin əksəriyyəti ailə qurmağı hər kəs üçün məcburi sosial norma hesab etməsə də, ailə sahibi olmağı şəxsi baxımdan əhəmiyyətli qiymətləndirir.

Təhlil edilən nümunədə ümumilikdə həyatdan və ailə həyatından daha yüksək məmnunluq boşanma barədə daha az düşünmə tezliyi ilə əlaqəsi müşahidə olunmuşdur. Subyektiv maddi məmnunluğu daha yüksək olan respondentlər arasında ailə sahibi olmağa yüksək əhəmiyyət verənlərin və boşanma barədə heç vaxt düşünmədiyini bildirənlərin xüsusi çəkisinin daha çox olması qeydə alınmışdır. Gender üzrə müqayisələrdə qadın respondentlərin boşanma barədə “bəzən” və ya “tez-tez” düşündüklərini bildirmə payı kişilərlə müqayisədə daha yüksək olmuşdur.

Tədqiqatın bir sıra məhdudiyyətləri vardır. Sorğu könüllü iştirak əsasında onlayn formada aparılmış, nümunədə ali təhsilli və Bakı-Abşeronda yaşayan şəxslər üstünlük təşkil etmişdir. Buna görə nəticələr Azərbaycan əhalisinin ümumi mövqeyi kimi təqdim edilməsi məqsədəuyğun deyil. Məlumatların kəsişmə xarakterli olması dəyişənlər arasında səbəb-nəticə əlaqəsi barədə dəqiq təsəvvür yaratmağa imkan vermir. Bundan əlavə, boşanma barədə düşünmə faktiki boşanma davranışı və ya boşanma ehtimalı ilə eyniləşdirilməməlidir. Qeyd olunan məhdudiyyətlər gələcək tədqiqatlar üçün mühüm əsaslar yaradır.

# ƏDƏBİYYAT SİYAHISI

Adilkhanova, M., & Aliyev, K. (2024). Macroeconomic determinants of marriage and divorces in Azerbaijan. *Economics & Sociology, 17*(4), 145-158.

Aghayeeabianeh, B., & Stamatel, J. P. (2022). The effects of sociopolitical factors on divorce rates after political upheavals in post-soviet countries. *Comparative Sociology, 21*(3), 300-319.

Aliyev, K. (2023). Perceived "common" social problems and macroeconomic trends in Azerbaijan. *Journal of International Studies, 16*(1), 41-56.

Aliyeva, T. (2023). Islamic values, love and respect in modern day Azerbaijani family. *Journal of World of Turks/Zeitschrift für die Welt der Türken, 15*(2).

Aliyeva, Y. N., Aliyeva, S. N., & Zhurba, M. (2017). Dichotomy of Family Relations of Azerbaijani Society in the Process of Globalization. *SocioEconomic Challenges, 1*(4), 104-111.

Amato, P. R. (2010). Research on divorce: Continuing trends and new developments. *Journal of Marriage and Family, 72*(3), 650-666.

Bagirzadeh, A. (2025). The primary psychological consequences of marital dissolution. *Baltic Journal of Legal and Social Sciences*, (2), 239-249.

Bayramov, T. (2021). Dynamics of Marriages & Divorces by Settlements in the Economic-Geographic Region of Guba-Khachmaz. *Ekinoks Ekonomi İşletme ve Siyasal Çalışmalar Dergisi, 8*(1), 46-63.

Becker, G. S. (1981). *A Treatise on the Family*. Harvard University Press.

Cherlin, A. J. (2004). The deinstitutionalization of American marriage. *Journal of Marriage and Family, 66*(4), 848-861.

Diener, E., Suh, E. M., Lucas, R. E., & Smith, H. L. (1999). Subjective well-being: Three decades of progress. *Psychological Bulletin, 125*(2), 276-302.

Gulaliyev, M., Huseynova, S., Hasanova, G., Azizova, R., & Gojaeva, E. (2025). The causal effect of divorce and income inequality on crime: Evidence from Azerbaijan. *Problems and Perspectives in Management, 23*(3), 245.

Inglehart, R., Haerpfer, C., Moreno, A., Welzel, C., Kizilova, K., Diez-Medrano, J., Lagos, M., Norris, P., Ponarin, E. & Puranen, B. et al. (eds.). (2014). *World Values Survey: Round Six*. Madrid: JD Systems Institute.

Khalafli, K., Taghiyeva, F., Rahimov, J., Amirova, M., Hasanov, V., & Qasımova, N. (2025). *Marriage–Divorce Dynamics in Azerbaijan, 2014–2023: A Time-Series Study*.

Krumpal, I. (2013). Determinants of social desirability bias in sensitive surveys: a literature review. *Quality & Quantity, 47*(4), 2025-2047.

Lesthaeghe, R. (2014). The second demographic transition: A concise overview of its development. *Proceedings of the National Academy of Sciences, 111*(51), 18112-18115.

Mehdi, G. (2009). *Early Marriages in Rural Azerbaijan.* (Master's thesis). Central European University, Budapest, Hungary.

Nadir, S. G. (2022). The Role of Woman in Modern Azerbaijani Family Summary. *State and Regions. Series: Social Communications*, (2(50)), 146-151.

Nuruzade, S. (2026). Family institute and modern challenges in Azerbaijan: historical and ethnological research. *Interacción y perspectiva: Revista de Trabajo Social, 16*(1), 85-105.

Oppenheimer, V. K. (1997). Women's employment and the gain to marriage: The specialization and trading model. *Annual Review of Sociology, 23*(1), 431-453.

Zakir, A. S. (2024). Women in independent Azerbaijan: a study of legal reforms protecting women's rights in the post-Soviet transition. *Universidad y Sociedad, 16*(2), 363-371.

# Marriage and Divorce Attitudes in the Context of Subjective Material Well-Being and Life Satisfaction: A Descriptive Analysis for Azerbaijan

**Maryam Adilkhanova**

## ABSTRACT

This article descriptively examines individual attitudes toward fundamental demographic processes in Azerbaijan, including marriage, divorce, and family formation, with particular emphasis on the relationship between subjective material well-being, life satisfaction, and attitudes toward marriage and divorce. The growing divorce rate and the slowdown in demographic growth have increased the importance of studying these issues. Due to the lack of individual-level data, the analysis is based on primary data collected through an anonymous online survey comprising responses from 784 participants.

The findings indicate that higher levels of satisfaction with one's financial situation and overall life are associated with a lower frequency of contemplating divorce. The declining perception of marriage as an obligatory social norm and the increasing prioritization of individual well-being are interpreted within the framework of the Second Demographic Transition theory, which has been widely used to explain similar trends in Western countries. Furthermore, the study highlights gender differences in family dynamics, showing that female respondents in lower financial satisfaction categories reported thinking about divorce more frequently than male respondents. It also demonstrates a negative descriptive relationship between individuals' financial satisfaction and the likelihood of considering divorce.

The findings provide preliminary empirical evidence for future research employing more representative samples and inferential statistical methods to examine these relationships in greater depth. Although the survey data were collected through an online convenience sample and therefore should not be generalized directly to the entire population of Azerbaijan, the results provide valuable insights into current patterns and tendencies.

**Keywords:** subjective material well-being; marriage; divorce dynamics; socio-economic development; life satisfaction; demographic transition.

# Отношение к браку и разводу в контексте субъективного материального благополучия и удовлетворённости жизнью: описательный анализ по Азербайджану

**Марьям Адилханова**

## АННОТАЦИЯ

В данной статье в описательном аспекте рассматриваются индивидуальные представления о таких фундаментальных демографических процессах в Азербайджане, как вступление в брак, развод и создание семьи, с особым акцентом на взаимосвязь между субъективным материальным благополучием, удовлетворённостью жизнью и отношением к браку и разводу. Рост уровня разводов и замедление темпов демографического роста повышают актуальность исследования данной проблемы. В связи с отсутствием индивидуальной статистической базы анализ основан на первичных данных, собранных посредством анонимного онлайн-опроса, в котором приняли участие 784 респондента.

Результаты исследования показывают, что более высокий уровень удовлетворённости своим материальным положением и жизнью в целом связан с меньшей частотой размышлений о разводе. Ослабление восприятия брака как обязательной социальной нормы и возрастающая ориентация на индивидуальное благополучие интерпретируются в рамках теории Второго демографического перехода, широко применяемой для объяснения аналогичных процессов в западных странах. Кроме того, исследование выявляет гендерные различия в семейной динамике: женщины, относящиеся к категориям с более низким уровнем удовлетворённости материальным положением, значительно чаще сообщали о мыслях о разводе по сравнению с мужчинами. Также установлена отрицательная описательная взаимосвязь между уровнем удовлетворённости материальным положением и вероятностью размышлений о разводе.

Полученные результаты создают предварительную эмпирическую основу для дальнейших исследований с использованием более репрезентативных выборок и методов статистического вывода. Несмотря на то что данные были собраны с помощью онлайн-опроса на основе нерепрезентативной выборки и не могут быть непосредственно распространены на всё население Азербайджана, они позволяют сформировать общее представление о современных тенденциях и закономерностях.

**Ключевые слова:** субъективное материальное благополучие; брак; динамика разводов; социально-экономическое развитие; удовлетворённость жизнью; демографический переход.

**Məqalə redaksiyaya daxil olub: 07.05.2026**

**Təkrar işlənməyə göndərilib: 01.07.2026**

**Çapa qəbul olunub: 31.07.2026**

*This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial License (CC BY-NC 4.0), which permits any non-commercial use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.*